# “Siz var olduqca qələbə Azərbaycanladır!”

Həyatda xoş xəbərli günlər yaşamaq, ümidverici sözlər eşitmək insanın ömrünə ömür calayır. Bu xoşbəxt anlar Sizin sayənizdə bütün Azərbaycan xalqına nəsib oldu. Dünyanın Sizin dilinizdən eşitdiyi “Ermənistan rəhbərliyinin gücü varsa, gəlsin təkbətək görüşək. Əgər hünəri varsa, tanısın görüm dırnaqarası Dağlıq Qarabağ Respublikasını, necə tanıya bilir?!”- ifadəsi qılıncdan kəsərli oldu.

Bu cəsarətli sözlərinizi, təpərli addım səslərinizi eşidən xalqımız Sizdən bir daha güc aldı və qürur duydu ki, Sizin kimi cəsur, qaməti əyilməz, dizi qatlanmaz mübariz rəhbəri var! Bütün dünya gördü ki, Siz otuz il müharibəyə hazırlaşan mənfur düşməni bir yumruğunuzu sıxmaqla darmadağın etdiniz. Ermənilər qısılmağa qoltuq dibi, yalamağa daban axtardılar.

Cənab Prezident! Siz Ulu Öndərin layiqli davamçısı, Azərbaycanın igidi kimi Murovdağ zirvəsində, Şuşa qalasında bayrağımızın ucaldılmasına nail oldunuz.

Sizin “Qarabağ Azərbaycandır!” deyiminizin sonunda qoyduğunuz nida işarəsi düşmənin ürəyinə batan ox, ucundakı nöqtə isə dünyanın işğalçı qüvvələrinə “Daha bəsdir, yetər!” sözünün son işarəsidir. Siz həm də dünya hərb tarixinə yeni adda bir silah təqdim etdiniz - “İtiqovan”. Bəsdir bu ad dünyanın bütün riyakar qüvvələrinə. Hamı işğalçı düşməni bu adla lənətləyib qovacaq.

Möhtərəm Ali Baş Komandan! Siz böyük SƏRKƏRDƏsiniz. Bu ad Sizə çox yaraşır. Çünki Siz Şah İsmayıl Xətainin qılıncı ilə bütövləşib sonradan parçalanan Azərbaycanın yarasını cəsarət məlhəmi ilə sağaltdınız, işğal qaysağını qopartdınız, onun sərhədinə polad zəncirli qıfıl vurub, qızıl açarını da ömürlük Azərbaycan xalqına bəxş etdiniz!

Bütün bunlara görə insan tam varlığıyla Sizə “Böyük Sərkərdə İlham Heydəroğlu” deyə müraciət edir. Bu ad Sizə XXI əsrin XALQ HƏDİYYƏSİ olaraq, ana südü kimi halaldır!

Mən əhd etmişəm ki, üçrəngli bayrağımız Kəlbəcərə taxılan gün bu şərəfli adı, içimdən gələn gur bir hayqırtıyla Ulu Göyçəyə, Zəngəzura, Böyük Türk Dünyasına çatdırım. Çünki Siz haqdan gələn çırağın şöləsi kimi Vətənimizə, bu günümüzə, sabahımıza işıq saçdınız!!!

Allah Sizi qorusun! Siz var olduqca qələbə hər zaman Azərbaycanladır!

Dərin hörmət və ehtiramla:

***Vəliyəddin İSMAYILOV,***
***Kəlbəcər rayonunun***
***Ağsaqqallar Şurasının üzvü***

Azərbaycan.- 2020.- 19 noyabr.- S.3.